| Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 13.01.09 tarixli 02 №-li əmri ilə təsdiq edilib və 01 02 2009-cu il tarixdən qüvvəyə minib | Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları | AzDTN 1.5-4 |
|---|---|---|
| | Layihənin baş mühəndisi (baş memarı) haqqında Əsasnamə | СНиП-1.06.04-85 əvəzinə |

Bu Əsasnamə-Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarıdır (AzDTN 1.5-4) və СНиП-1.06.04-85-in əvəzinədir.

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə yeni tikintilərin, mövcud mülki və istehsalat təyinatlı obyektlərin genişləndirilməsi, yenidən qurulması və texniki yeniləşdirilməsi, şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması (daha sonra - obyektlərin tikintisi) layihələrinin baş mühəndisinin (baş memarının) vəzifələrini, hüquqlarını və məsuliyyətini müəyyən edir.

**1.2.** Layihə təşkilatının rəhbərliyi mövcud qanunvericiliyi rəhbər tutmaqla, müxtəlif təyinatlı, xüsusilə mürəkkəb tikinti obyektlərin layihələndirilməsi və tikintisinin xüsusiyyətlərini nəzərə alaraq layihənin baş mühəndisinə (baş memarına) bu Əsasnamə ilə nəzərdə tutulmuş vəzəifələrdən əlavə vəzifələr həvalə edə bilər.

**1.3**. Layihənin baş mühəndisi (baş memarı) obyektin layihələndirilməsi, tikintisi, istismara verilməsi və layihə güclərinə yiyələnməsinin bütün dövrü ərzində layihə-smeta sənədlərinin tərtib edilməsinin və layihə işlərinə texniki rəhbərliyin təşkil edilməsi üçün təyin edilir.

Layihələndirilən obyektlərin mürəkkəbliyindən və spesifik xüsusiyyətlərindən asılı olaraq layihənin baş mühəndisi və ya layihənin baş memarı təyin edilir.

İri və mürəkkəb obyektlərin və ya şəhərin xarici görkəmi üçün böyük əhəmiyyət kəsb edən obyektlərin, müəssisə və qurğuların layihələndirilməsində eyni zamanda layihə baş mühəndisinin və baş memarının təyin edilməsinə yol verilir. Bu halda aparıcı rol onlardan birinə həvalə edilir.

Baş layihə təşkilatı layihənin baş mühəndisini (baş memarını) müəssisə, bina və qurğuların, yaşayış məskənlərin planlaşdırılması və tikilib abadlaşdırılmasının bütün kompleksi üzrə, subpodrat layihə təşkilatı isə - bu təşkilat tərəfindən yerinə yetirilən kompleks işlər üzrə təyin edir.

Mühüm obyektlərin layihələndirilməsində, zərurət olduğu hallarda baş layihə təşkilatının rəhbərliyi layihə-nin baş mühəndisinin müavini vəzi-fəsini ştata daxil edə bilər.

Layihənin baş mühəndisi (baş memarının) obyektin layihələndirilməsində iştirakından asılı olaraq, həmçinin layihənin müəllifi və ya müəlliflərindən biri olur.

**1.4.** Layihənin baş mühəndisi (baş memarı) öz fəaliyyətində aşağıdakıları rəhbər tutmalıdır:

mövcud qanunvericiliyi;

Azərbaycan Respublikası əhalisinin məskunlaşmasının, təbiətdən istifadə-

nin və istehsal qüvvələrinin ərazi təşkilinin Baş sxemini, əhalisinin məskunlaşmasının ,təbiətdən istifadənin və istehsal qüvvələrinin ərazi təşkilinin regional sxemlərini, rayon planlaşdırılma sxemləri və layihələrini, şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması layihələrini, sənaye qovşaqlarının baş plan sxemlərini; standartları, müvafiq sahələrin obyektlərinin layihələndirilməsində əsas istiqamətlər üzrə sənədləri, birtipli (təkrarən istifadə edilən) layihə sənədlərinin kataloqlarını, tikinti norma və qaydalarını, dövlət nəzarəti orqanlarının normativ sənədlərini, ayrı-ayrı nazirliklərin, birliklərin və ictimai təşkilatların normativ sənədlərini; Nazirlər Kabinetinin, nazirlik və birliklərin sairə göstərişlərini.

## 2. Layihənin baş mühəndisinin (baş memarının) əsas fəaliyyət istiqamətləri və vəzifələri:

**2.1.** Layihənin baş mühəndisinin (baş memarının) əsas fəaliyyət istiqamətləri layihələndirilən obyektlərin yüksək texniki-iqtisadi səviyyəsinin və layihə-smeta sənədlərinin keyfiyyətinin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və obyektlərin tikintisi və istismarı dövründə material ehtiyatların sərfinin azaldılması, binaların konstruksiyalarının etibarlılığının və yanğına qarşı təhlükəsizliyinin təmin edilməsi, şəhərsalma və memarlıq-planlaşdırma həllərinin keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir.

### 2.2. Əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq Layihənin baş mühəndisinə (baş memarına) aşağıdakı vəzifələr həvalə edilir:

**2.2.1.** Tikinti üçün meydançanın (trassanın) seçilməsi üzrə komissiyanın işində, fəaliyyətdə olan müəssisə, bina və qurğularını yenidən qurulması və texniki yeniləşdirilməsi üzrə layihə-smeta sənədlərinin tərtibatı üçün layihə tapşırığının hazırlanmasında və mühəndis müayinələrinin təşkil edilməsində iştirak etmək;

**2.2.2.** Yeni texnoloji proseslər, həmçinin tərtibatı və hazırlanması uzun müddət tələb edən avadanlıqlar yerləşdiriləcək obyektlər üçün elmi-tədqiqat, konstruktor və layihə işlərinin yerinə yetirilməsinin kompleks təqvim-planlarının hazırlanmasında iştirak etmək;

**2.2.3.** Layihə-axtarış işlərinin yerinə yetirilməsinə sifarişçi ilə müqavilənin bağlanması üçün ilkin məlumatlar hazırlamaq (o cümlədən layihələndirmə və mühəndis–axtarışlarının dəyəri barədə), layihə-smeta sənədlərinin hazırlanması qrafikini tərtib etmək;

**2.2.4.** Layihə tərtibatçılarının tərkibinin formalaşdırılmasının təşkil edilməsi, onlar arasında layihənin bölmələri və hissələri üzrə tapşırıqların və iş həcmlərinin (müvafiq əmək haqqı fondu ilə) bölüşdürülməsi;

**2.2.5.** Qəbul edilən layihə həllərinin texniki və səmərəlilik səviyyəsinə və layihə-smeta sənədlərinin tərtibatı müddətlərinə nəzarət etmək;

**2.2.6.** Subpodrat layihə və mühəndis-axtarış təşkilatlarına, onlara həvalə edilmiş işlərin yerinə yetirilməsi üçün tapşırıqların hazırlanması və həmin təşkilatları layihələndirmə üçün ilkin məlumatlarla təmin etmək; layihə-smeta sənədlərinin hazırlanması prosesində subpodrat təşkilatlarda ortaya çıxan bütün məsələləri vaxtında həll etmək;

**2.2.7.** Layiləndirmədə geniş tətbiqi məqsədi ilə birtipli və təkrarən istifadə edilən səmərəli fərdi layihələrin, unifikasiya edilmiş həcm-planlaşdırma, konstruktiv və texnoloji həllərin, qovşaqların, konstruksiyaların və məmulatların seçilməsi ;

**2.2.8.** Layihənin bütün kompleksi üzrə layihə-axtarış işlərinin əlaqələndirilməsinə, sifarişçiyə komplekt layihə sənədlərinin həmin işlərin görülməsi üzrə müqaviləyə əlavə edilmiş qrafikdə müəyyən edilmiş müddətlərdə təhvil verilməsinə və layihə-axtarış işlərinə vəsaitlərin düzgün xərclənməsinə mütəmadi nəzarət edilməsi;

**2.2.9.** Obyektin layihələndirməsi ilə əlaqədar və onun tikintisi, istismara verilməsi və layihə güclərinə yiyələnməsi prosesində ortaya çıxan məsələləri vaxtında həll etmək;

**2.2.10.** Daha məqsədə uyğun və səmərəli layihə həllərinin müəyyən edilməsi üçün zəruri variantların hazırlanmasının təmin edilməsi;

**2.2.11**. Layihələrin layihələndirmə tapşırığına və işçi sənədlərin təsdiq olunmuş layihəyə uyğunluğunun təmin edilməsi;

**2.2.12**. Layihə-smeta və digər texniki sənədlərinin həcmlərinin azaldılması üzrə tədbirlərin görülməsi;

**2.2.13**. Layihədə ilk dəfə tətbiq edilən texnoloji proseslərin, avadanlıq, cihaz, konstruksiya, material və məmulatların patent baxımından təmizliyinin yoxlanılması işlərinin təşkili;

**2.2.14**. Əsaslandırılmış halda, qüvvədə olan norma, qayda və təlimatlardan kənara çıxmalarla yerinə yetirilmiş layihə sənədlərinın həmin kənara çıxmalarla bağlı hissələrinin dövlət nəzarəti orqanları və həmin norma, qayda və təlimatları təsdiq etmiş təşkilatlarla razılaşdırılması;

**2.2.15.** Müəssisə, bina və qurğuların tikintisinə layihə-smeta sənədlərinin mövcud norma, qayda, təlimat və dövlət standartlarına uyğun olaraq tərtib olunmasını layihə sənədlərində müvafiq qeydlə təsdiq etmək;

**2.2.16**. Müəyyən olunmuş qaydada podrat təşkilatı tərəfindən layihə-smeta sənədlərinə baxılmasında iştirak etmək;

**2.2.17.** Layihəni yuxarı təşkilatlarda və ekspertiza orqanlarında müdafiə etmək;

**2.2.18.** Tikintiyə müəllif nəzarətini həyata keçirmək;

**2.2.19.** Yeni normaların qüvvəyə münməsi ilə əlaqədar olaraq, tikintinin faktiki vəziyyəti nəzərə alınmaqla layihə təşkilatının rəhbərliyinə və layihə-smeta sənədlərinin sifarişçisinə

işçi sənədlərdə dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması;

### 3. Layihənin baş mühəndisinin (baş memarının ) hüquqları:

**3.1**. Layihənin baş mühəndisinin (baş memarının ) aşağıdakı hüquqları vardır:

**3.1.1**. Layihə-smeta sənədlərinin tərtibatı, razılaşdırılması və baxılması, tikintinin təsdiq olunmuş layihə üzrə aparılması məsələləri əlaqədar layihə təşkilatını idarə, müəssisə və təşkilatlarda təmsil etmək və layihə təşkilatı tərəfindən müəyyən edilmiş qaydada bu məsələlər üzrə yazışmalar aparmaq;

**3.1.2.** Obyektin layihələndirilməsi, tikintisi və istismara verilməsi və layihə güclərinə yiyələnməsi prosesində texniki məsələlər üzrə qərarlar qəbul etmək;

**3.1.3.** Layihə həllərindən kənara çıxmalarla, texniki şərtlər pozulmaqla və keyfiyyətsiz yerinə yetirilən ayrı-ayrı tikinti - quraşdırma işlərinin aparılmasını dayandırmaq;

**3.1.4.** Podratçı tikinti-quraşdırma təşkilatı ilə razılaşdırmaqla işçi sənədlərin qısaldılmış həcmini təyin etmək;

**3.1.5.** Layihənin tərtibatının vəziyyətini, layihə-axtarış işlərinə vəsaitin xərclənməsinin düzgünlüyünü, müəyyən edilmiş layihələndirmə müddətlərinə riayət edilməsini və layihə-smeta sənədlərinin tərtibatı prosesində layihə həllərinin keyfiyyətini yoxlamaq;

**3.1.6.** Obyektlərin layihələndirilməsi, tikintisi və istismarı üzrə mövcud normativ sənədlərin korrektə edilməsi və yeni normativ sənədlərin işlənilməsi barədə layihə təşkilatının rəhbərliyinə təkliflər vermək;

**3.1.7**. Layihənin tərtibatında fərqlənmiş işçilərin mükafatlandırılması barədə layihə təşkilatının rəhbərliyinə təkliflər təqdim etmək, icraçı təşkilatlar və bölmələr arasında mükafatın bölünməsi məsələlərində iştirak etmək, həmçinin layihə-smeta sənədlərinin vaxtında təhvil verilməməsində və keyfiyyətsiz tərtib olunmasında günahkar işçilərın cəzalandırılması barədə təkliflər vermək;

### 4. Layihənin baş mühəndisinin (baş memarının ) məsuliyyəti:

**4.1.** Layihənin baş mühəndisi (baş memarı) tikilən obyektlərin texniki-iqtisadi səviyyəsi və memarlıq həllərinə görə, layihə-smeta sənədlərinin keyfiyyətinə, vaxtında tərtib edilməsinə və komplektliyinə, smeta dəyərinin düzgün təyin edilməsinə və tikintinin mərhələliyinə (növbələr üzrə tikiləcək obyektlərin ardıcıllığına), müəyyən edilmiş müddətlərdə müəssisələr tərəfindən layihə güclərinə yiyələnməsinə, həmçinin bu Əsasnamə ilə ona həvalə edilmiş bütün vəzifələrin yerinə yetirilməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

MÜNDƏRİCAT

1. Ümumi müddəalar......................................................................................1
2. Layihənin baş mühəndisinin (baş memarının) əsas fəaliyyət istiqamətləri və vəzifələri.......................................................................................................2
3. Layihənin baş mühəndisinin (baş memarının ) hüquqları...............................4
4. Layihənin baş mühəndisinin (baş memarının ) məsuliyyəti............................4

*RƏSMİ NƏŞR*

***Dövlət Şəhərsalma və Arxitektura Komitəsi***
**AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT TIKINTI NORMALARI**

**AzDTN 1.5-4. LAYİHƏNİN BAŞ MÜHƏNDİSİ (BAŞ MEMARI) HAQQINDA ƏSASNAMƏ**

Buraxılışa məsul şəxslər: M.Q. Babayev, G. Ə. Məlikova, E. M. Zamanov

---

"Azərmemarlayihə" DBLİ nəşrə hazırlamış və çap edilmişdir.

AZ 1014, Bakı, Füzuli küç, 65